# Naxçıvan Muxtar Respublikası – 90

*Azərbaycan Respublikasının Prezidenti **İlham Əliyevin** "Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında" 14 yanvar 2014-cü il tarixli Sərəncamının icrasına dair tədbirlər planına əsasən nəşr olunur.*

**Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi**
**Naxçıvan Muxtar Respublikasının Ali Məclisinin aparatı**

Layihənin rəhbəri

**Əbülfəs Qarayev,**
**Azərbaycan Respublikasının mədəniyyət və turizm naziri**

Məsləhətçilər

**Vaqif Əliyev**
Mədəniyyət və Turizm Nazirinin birinci müavini

**Firudin Qurbanov,**
Mədəniyyət və Turizm Nazirliyinin Aparatının rəhbəri

Mətn müəllifləri

**İntiqam Hümbətov**
**Zöhrə Əliyeva**
**Rəşad Əliyev**
**Fariz Yunisli**

*Naxçıvan Muxtar Respublikanın 90 illiyinə həsr olunur.*
*Bakı, "Sərbal" Group MMC 2014. 96 səh.*
*"Printland" MMC-nin mətbəəsində hazır*
*diapozitivlərdən çap olunmuşdur. Tiraj:1500 ədəd*

Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikası milli dövlətçilik tariximizin, elmi, ədəbi-mədəni irsimizin formalaşmasında, zənginləşməsində mühüm rol oynamışdır. Şəhərsalma mədəniyyətinin 5 min il yaşının faktlarla sübut edildiyi bu qədim oğuz yurdu bəşəriyyətin ilkin beşiklərindən hesab olunur. Buradakı Gəmiqaya təsvirləri, qədim duz mədənləri, I və II Kültəpələr, Xaraba Gilan, Ovçular təpəsi və digər tarixi məkanlardan tapılmış maddi-mədəniyyət yadigarları hər daşı tarix çağıran Azərbaycan elinin möhtəşəm keçmişindən soraq verir.

Təqdim olunan nəşrdə minilliklərdən boylanan Naxçıvanın tarix və mədəniyyət abidələri, turizm potensialı, müasir inkişafı, ecazkar təbiəti öz əksini tapıb.

© Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi, 2014
© "Sərbal" Group MMC, 2014

# AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI

## Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinin keçirilməsi haqqında

2014-cü il fevral ayının 9-da Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illiyi tamam olur. Azərbaycanın qədim bölgəsi Naxçıvan tarixən çətin sınaqlarla dolu mürəkkəb və eyni zamanda şərəfli bir yol qət etmişdir.Çoxəsrlik dövlətçilik ənənələri olan bu diyar həmişə xalqımızın zəngin mədəni irsini layiqincə yaşatmış, yetirdiyi çox sayda görkəmli elm xadimləri, sənətkarları, tarixi şəxsiyyətləri ilə ölkəmizin sosial-iqtisadi, ictimai-siyasi həyatında əvəzsiz rol oynamışdır.

Naxçıvan əhalisinin milli istiqlal ideyalarına bağlılıq nümayiş etdirərək dövlət müstəqilliyimizin bərpası, qorunub saxlanılması və möhkəmləndirilməsində müstəsna xidmətləri vardır. Bu gün yüksək potensiala malik muxtar respublika bütün dövlət proqramlarını, infrastruktur layihələrini böyük uğurla həyata keçirməsi sayəsində ölkədə dinamik inkişaf xəttinə uyğun, fasiləsiz aparılan irimiqyaslı quruculuq, abadlıq işlərinin fəal iştirakçısıdır. Naxçıvan hazırda mötəbər beynəlxalq tədbirlərin təşkil olunduğu məkana çevrilmişdir.

Naxçıvan Muxtar Respublikasının yaradılmasının Azərbaycanın siyasi tarixinin mühüm əhəmiyyətli hadisəsi olduğunu nəzərə alaraq və Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyi dövlət səviyyəsində qeyd olunsun.

2. Azərbaycan Respublikasının Mədəniyyət və Turizm Nazirliyi Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi, Azərbaycan Respublikasının Təhsil Nazirliyi, Azərbaycan Respublikasının Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planı hazırlayıb həyata keçirsin.

3. Naxçıvan Muxtar Respublikasında Naxçıvan Muxtar Respublikasının yaradılmasının 90 illik yubileyinə həsr olunmuş tədbirlər planını hazırlayıb həyata keçirmək Naxçıvan Muxtar Respublikasının Ali Məclisinə tövsiyə edilsin.

4. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Sərəncamdan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, "14" yanvar 2014-cü il.

*"Naxçıvan muxtar respublikadır. Azərbaycanın tərkibindədir. Bu, beynəlxalq müqavilələr nəticəsində yaranmış statusdur. Onu heç kəs dəyişdirə bilməz".*

**Heydər Əliyev,**
*Azərbaycan xalqının ümummilli lideri*





*"Naxçıvan qədim Azərbaycan torpağıdır. Naxçıvanda tarixi abidələr, dini abidələr, memarlıq abidələri, bütün toponimlər Azərbaycan xalqına məxsusdur. Əsrlər boyu Azərbaycan xalqı bu gözəl diyarda yaşamış, yaratmışdır".*

**İlham Əliyev,**
*Azərbaycan Respublikasının Prezidenti*





*"Naxçıvanın muxtariyyəti asanlıqla qazanılmayıb. Beynəlxalq Qars müqaviləsi 1921-ci ildə imzalansa da, Naxçıvana 3 il sonra, 1924-cü ildə muxtariyyət verilib. Naxçıvanın muxtariyyəti çətin sınaqlardan keçərək gərgin hərbi-siyasi və diplomatik mübarizələr nəticəsində əldə olunub".*

**Vasif Talıbov,**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri*






# Naxçıvan Muxtar Respublikası

Naxçıvan Azərbaycan Respublikasının tərkibində muxtar dövlətdir. Ərazisi 5502,75 km$^2$, əhalisi 435 min nəfərdir. Muxtar respublikada 7 rayon, 8 qəsəbə, 206 kənd vardır.

## Tarix

Qədim Azərbaycan torpağı olan Naxçıvan Yer kürəsində həyatın başlandığı ilk insan məskənlərindən biridir. Azərbaycan xalqı bu diyarda qədim və zəngin mədəniyyət yaratmışdır. Naxçıvan eyni zamanda dünyanın ən qədim mədəniyyət mərkəzlərindəndir. Bu torpaqda Azərbaycan xalqının zəngin tarixi, elmi və mədəni irsi formalaşmışdır.

*Gəmiqaya təsvirləri*



«Naxçıvan» sözünün mənşəyini alimlər müxtəlif cür izah edirlər. Xalq etimologiyasına və tarixi qaynaqlara görə, «Naxçıvan» «Nəqşi-cahan», yəni «dünyanın naxışı», «dünyanın bəzəyi» sözlərindən yaranmışdır. Naxçıvan sözü «Nakçuana/Naxçuan» - «möcüzəli və yaxşı sular diyarı», yaxud «müalicəvi mineral sular ölkəsi» kimi də izah olunur.



*Gəmiqaya təsvirləri*



Xalq arasında geniş yayılmış digər bir rəvayətə görə, «Naxçıvan» toponimi Nuh peyğəmbərlə, daha doğrusu, «dünya tufanı» ilə bağlı olub, «Nuhçuvan» - «Nuh tərəfdarlarının məskəni», «Nuhun diyarı» deməkdir. Nuh peyğəmbərin məzarı da Naxçıvan şəhərindədir.

***"Gəmiqaya" Tarix-Bədii Qoruğu***



Naxçıvan dünyanın ən qədim şəhər məskənlərindən biridir. Şərqdə və bütün dünyada ən qədim şəhərlərdən biri hesab olunur. Orta əsr tarixçisi Stefan Orbelyani Naxçıvanın e.ə. 1539-cu ildə şəhər olduğu haqda məlumat vermişdir. Sistemləşdirilmiş yazılı mənbələr, Naxçıvan ərazisindən arxeoloji qazıntılar zamanı əldə olunan arxeoloji materiallar, məşhur Gəmiqaya qayaüstü yazıları və bu ərazidəki digər abidələr sübut edir ki, Naxçıvan şəhərinin 5 min il yaşı vardır.



Tarixin müxtəlif mərhələlərində yadellilərin işğalı altına keçməsinə, dağıdıcı müharibələr meydanına çevrilməsinə baxmayaraq, Naxçıvan öz tarixi-mədəni simasını qoruyub saxlamışdır. 1917-ci ilin sonlarından ermənilərin Naxçıvana qarşı ərazi iddialarının xüsusilə güclənməsi 1918-ci ilin əvvəllərində real təhlükəyə çevrildi.

1920-ci ildə Rusiya ilə Ermənistan arasında imzalanmış hərbi-siyasi sazişə görə Azərbaycan torpağı olan, Zəngəzurun Ermənistana verilməsi ilə Naxçıvanın Azərbaycandan ayrı düşməsi Naxçıvanın muxtariyyəti məsələsini gündəliyə gətirdi. 1921-ci il 16 martda bağlanmış Moskva və 1921-ci il 13 oktyabrda bağlanmış Qars müqavilələri Naxçıvanın taleyinin həll edilməsində böyük əhəmiyyətə malik oldu. 1924-cü il fevralın 9-da Azərbaycan SSR-in tərkibində Naxçıvan Muxtar Diyarı Naxçıvan Muxtar Respublikasına çevrildi.

***Gəmiqaya təsvirləri***



Mədəni irs

Naxçıvan ərazisindən arxeoloji qazıntılar zamanı əldə olunan materiallar, bəşər sivilizasiyasının ilkin beşiklərindən hesab olunan Gəmiqaya qayaüstü yazıları və bu ərazidəki digər abidələr sübut edir ki, Naxçıvan şəhərinin 5 min il yaşı var. Unikal iqlimi, təbii imkanları qədim zamanlardan Naxçıvana şöhrət gətirib, burada oturaq həyatı şərtləndirib.

*Gəmiqaya təsvirləri*





XII yüzillikdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuş Naxçıvan möhtəşəm tarix-mədəniyyət yadigarları ilə zəngindir. Müsəlman Şərqində ilk dəfə qadının şərəfinə ucaldılan Möminə xatın türbəsi, Yusif Küseyiroğlu məqbərəsi və digər abidələr burada memarlıq sənətinin böyük inkişaf yolu keçdiyini göstərir. Naxçıvan memarlıq məktəbinin banisi Əcəmi Naxçıvani zəkasının izləri ölkəmizin hüdudlarından kənarda da özünü göstərmişdir.

*Gəmiqaya təsvirləri*



Haçadağ



Batabat gölü



Şahbuz



Oğlanqala, I, II Kültəpə, Ovçular təpəsi, Qazma mağarası, Xaraba Gilan və s. məkanlardan tapılan maddi mədəniyyət nümunələri bu qədim türk yurdunun zəngin etnik-mədəni sistemindən soraq verir. Ötən dövr ərzində muxtar respublika ərazisində 1200-dən çox dünya, ölkə və yerli əhəmiyyətli tarixi abidə pasportlaşdırılıb. Nuh peyğəmbərin Naxçıvan şəhərində qəbirüstü abidəsinin, Culfa rayonundakı Xanəgah türbəsinin, Xalça Muzeyinin, "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksinin yaradılması, Bəhruz Kəngərli Muzeyi, "Gəmiqaya" Tarix-Bədii Qoruğu üçün yeni binanın istifadəyə verilməsi və bu kimi işlər muxtar respublikada mədəni irsə göstərilən diqqət və qayğının bariz nümunəsidir.

Üç cilddə "Azərbaycan folklor antologiyası. Naxçıvan folkloru" işıq üzü görmüş, "Naxçıvan tarixi" çoxcildliyinin birinci cildi nəşr olunmuş, digər cildlərin nəşrə hazırlanması üzərində iş davam etdirilir.

***Nuh peyğəmbərin məzarüstü türbəsi***





***Əshabi-Kəhf ziyarətgahı***



Muxtar respublikada musiqi təhsilinin, teatrın inkişafı istiqamətində də mühüm işlər görülüb. Naxçıvan şəhərində Ə.Cavid adına musiqi və bədii sənətkarlıq, 3 nömrəli uşaq musiqi məktəbləri üçün yeni binalar tikilib. Həmçinin rayon mərkəzlərində və kəndlərdə musiqi məktəbləri istifadəyə verilib.

Son illər Naxçıvan Dövlət Musiqili Dram Teatrı yüksək səviyyədə təmir olunaraq teatrsevərlərin ixtiyarına verilib. Teatrın səhnəsində dünya və Azərbaycan ədəbiyyatının klassik və müasir nümunələri səhnələşdirilir. Teatrın kollektivi regionlarımıza qastrol səfərlərinə gedir, xarici ölkələrdə mədəniyyətimizi layiqincə təmsil edir.

Turizm

Muxtar respublikada min illərdən boylanan maddi mədəniyyət nümunələri - Nuhun türbəsi, Haçadağ, Əlincəqala, Möminə xatın türbəsi, Gülüstan qalası, "Darıdağ", "Badamlı", "Sirab", "Vayxır", "Şor su" kimi mineral su mənbələri turistlərin diqqətini cəlb edən məkanlardır. Bölgədə müasir tələblərə cavab verən müasir turizm infrastrukturunun formalaşdırılması istiqamətində ardıcıl tədbirlər görülür. Burada dini turizmin inkişafında böyük rolu olan, "Haqqın ürəklərə daman yeri" - Əshabi-Kəhf ziyarətgahı xüsusilə İslam ölkələrindən olan turistlərin diqqətini cəlb edir. Həmçinin Duzdağ Fizioterapiya Mərkəzində yaradılan şərait, qədim duz sarayları sağlamlıq turizminin inkişafı üçün mühüm zəmindir. Müxtəlif ölkələrdən buraya üz tutan insanlar həm şəfa tapır, həm də möcüzəvi aləmə düşürlər.

***Əlincəqala***



Muxtar respublika Ali Məclisinin Sədri Vasif Talıbov Culfa rayonundakı Əlincəqala abidəsinin bərpası ilə bağlı sərəncam imzalayıb. Dillərdə dastan olan bu qala-abidənin bərpasından sonra turist marşurutlarının sayı daha da artacaqdır.

***Yusif Küseyiroğlu türbəsi, XII əsr***



Mömino xatun türbəsi, XII əsr



Gülüstan qalası, XIII əsr



*"Naxçıvana muxtariyyət vermək, Moskva, Qars müqavilələrində Naxçıvanın müqəddəratını o illərdə həll etmək asan məsələ deyildi. Amma o vaxt milli mənafeyi qoruyan adamlar bunu etdilər. Mən bunu tarixi nailiyyət hesab edirəm... Kim Azərbaycanın milli mənafelərinin keşiyində durubsa, ona xidmət göstəribsə, o insanlar bizim tariximizdə həmişə hörmətlə yada salınmalı və tariximizə daxil olmalıdırlar".*

*Heydər Əliyev,*
*Azərbaycan xalqının ümummilli lideri*

**Xanəgah Memarlıq Kompleksi, XIV əsr**



**Qarabağlar türbəsi, XIV əsr**



"Xan Sarayı" Dövlət Tarix-Memarlıq Muzeyi, XVIII əsr



Ordubad şəhəri, Qeysəriyyə, XVIII əsr



## Naxçıvan Səlcuqlar dövründə, X əsrin sonu - XI əsrin I yarısı




Naxçıvan şəhəri. Yusif Küseyir oğlu türbəsi, XII əsr.

## Naxçıvan Azərbaycan Atabəylər (Eldənizlər) Dövləti (1136-1225-ci illər)






Naxçıvan şəhəri. Möminə xatın türbəsi, 1186-1187-ci illər

Vassal ərazilər ........ Vassal ərazilərin sərhədləri

Səlcuq imperiyasının tənəzzülü dövründə hakimiyyət uğrunda davam edən çəkişmələr nəticəsində yeni dövlət qurumlarının-atabəyliklərin təşkili üçün zəmin yarandı.1136-cı ildə Azərbaycan Eldənizlər dövləti meydana gəldi.Naxçıvan şəhəri 1136-1175-ci illərdə Azərbaycan Atabəylər dövlətinin paytaxtı olmuşdur. Bu dövrdə təsərrüfatın inkişafı üçün əlverişli şərait mövcud idi: metal əridilir, sənətkarlıq inkişaf edir, yeni şəhərlər salınırdı.





Naxçıvan. Qarabağlar türbəsi, XII-XIVəsrlər

XIII-XIV əsrlərdə Azərbaycan Hülakülər və Cəlairilər dövlətlərinin mərkəzi vilayəti olmaqla, inzibati-ərazi bölgüsü baxımından əsas 4 əyalətə—Azərbaycan, Arran,Şirvan və Muğan əyalətlərinə ayrılırdı. Azərbaycan əyalətinin (tarixi Atropatena ərazisi) özü də 9 tümənə bölünmüşdür. Naxçıvan Araz çayının hər iki sahilindəki ərazilərə malik olsa da "tümən" statusu ilə Azərbaycan əyalətinə daxil idi və müasir dövrə nisbətən çox geniş əraziləri əhatə edirdi. Naxçıvan tüməni Makudan Qafan dağlarına kimi olan ərazini əhatə edirdi və Xoy, Mərənd, Mişkin tümənləri və Qarabağ mahalı ilə hüdudlanırdı. Həmdullah Qəzvini (XIV əsr) Makunu Naxçıvan tüməninə daxil olan 5 şəhərdən biri kimi tanıdır (Naxçıvan, Ordubad, Azad, Əncan və Maku) və onun qaya yarğanında yerləşən qala olduğunu bildirir. Fəzlullah Rəşidəddin (1247-1318) isə Qafanın Naxçıvan tüməninə aid olduğunu yazırdı. Onun kənd təsərrüfatına həsr olunmuş "Asar və əhya" ("Təsir və dirçəliş") əsərində qeyd olunan "zoğal Naxçıvana aid olan Qafanın bəzi yerlərində bitir", ərvağan çiçəyi "Naxçıvan vilayətində olan Qafan dağlarında çox bitir" kimi faktları Qafan ərazisinin inzibati-ərazi baxımından Naxçıvan tüməninə daxil olduğunu göstərir.






Naxçıvan şəhəri, Naxçıvanqala



Culfa r-nu, Xanəgah kəndi, Əlincə qalası V-VII əsrlər



Naxçıvan XV əsrdə




XV əsrin başlanğıcı Azərbaycanın yadelli əsarətindən azad edilməsi və qədim dövlətçiliyin bərpa edilməsi dövrüdür. Bu dövrdə Kür çayından şimalda Şirvanşahlar dövləti və Şəki hakimliyi mövcud idi. 1408-ci ildə Qara Yusif tərəfindən Azərbaycanda Teymuri ağalığına son qoyuldu və 1410-cu ildə Cəlairi Sultan Əhməd üzərində qələbədən sonra mərkəzi Təbriz şəhəri olan Azərbaycan Qaraqoyunlu dövləti yarandı. Bu dövlətə Kürdən cənubdakı Azərbaycan torpaqları, Şərqi Anadolu, Ərəb İraqı və Əcəm İraqı daxil oldu. 1468-ci ildə onu Ağqoyunlu dövləti əvəz etdi. Bu dövlətin sərhədləri şərqdə Xorasana kimi uzanırdı. XV əsrdə Ərdəbil, Lənkəran və Qaracadağ bölgələrində Səfəvilərin Ərdəbil hakimliyi mövcud olmuşdur.



Naxçıvan sancağının inzibati ərazisi, XVIII əsrin 20-30-cu illəri





Culfa rayonu. Ləkətağ körpüsü, XVI əsr

Naxçıvan diyarı XVI əsrin sonunda (1588-1603-cü illər) və XVIII əsrin əvvəlində (1724-1735-ci illər) Osmanlı imperiyasının tərkibinə qatılmış və burada Osmanlı idarə sistemi tətbiq edilmişdir. Osmanlılar Azərbaycan torpaqlarını əyalətlərə (bəylərbəyiliklərə) və sancaqlara bölmüşdülər. Naxçıvan sancağının tərkibində 14 nahiyə, 315 yaşayış məskəni olmuşdur. İndiki Naxçıvan Muxtar Respublikasının ərazisindən başqa, sancağın tərkibinə Ermənistanın Yexeqnadzor rayonu, Cermuk rayonunun yarısı, Sisian rayonunun böyük bir hissəsi və Mehri ilə birlikdə bir neçə yaşayış məntəqəsi daxil idi.

Naxçıvan Xanlığı (1747-1828-ci illər)





Naxçıvan şəhəri, Xan sarayı, XVIII əsr

1747-ci ildə Nadir şahın ölümündən sonra onun imperiyası dağılmış və Azərbaycanda 20-dək xırda irsi feodal monarxiyalar-xanlıqlar, həmçinin qonşu hakimlərdən asılı olan bir neçə sultanlıq meydana gəlmişdir.

Hüseyn xan Naxçıvanski



Naxçıvan XIX əsrin II yarısı – XX əsrin əvvəllərində





Naxçıvan şəhəri. Dəmiryol vağzalı,1905-ci il

Azərbaycan türkləri

Türkiyə və İrandan köçürülmüş ermənilər

Digər xalqlar (ruslar, yunanlar, yəhudilər və başqaları)

*Naxçıvan Araz-Türk Respublikası, noyabr 1918 – mart 1919-cu illər*






Araz-Türk Respublikasının Xarici İşlər Naziri Bəhram xan Naxçıvanski (ermənilərlə döyüşdə şəhid olub) və qardaşı Kamran xan



Naxçıvan şəhəri.
Araz-Türk Respublikasının qərargahının yerləşdiyi bina

Araz-Türk Respublikasının ərazisinə Sürməli qəzası, Üçmüəzzin qəzasının bir hissəsi, Sərdarabad, İrəvan qəzasının bir hissəsi — Uluxanlı (Zəngibasar), Qəmərli (Gərnibasar), Vedi (Vedibasar), Şərur-Dərələyəz qəzası, Naxçıvan qəzası, Ordubad qəzası, Mehri bölgəsi daxil olmuşdur. Mərkəzi Naxçıvan şəhəri idi. Sahəsi 8696 kv.km-ə çatırdı.

Əhalisi bir milyon nəfərdən artıq olmuşdur.










Culfa şəhəri. Dəmiryol vağzalı,1900-cü il

Mübahisəli ərazilər

28.V.1918 Azərbaycan Xalq Cümhuriyyətinin yaradılması

28 may 1918-ci ildə Azərbaycan Milli Şurası Azərbaycanın müstəqilliyini elan etdi. Bununla bütün şərqdə və türk dünyasında ilk demokratik respublika yarandı. Azərbaycan Milli Şurası öz üzərinə icra və qanunvericilik səlahiyyətləri götürdü.

Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının birinci sədri Fətəli xan Xoyski təyin edildi. Azərbaycan hökuməti səlahiyyətli dövlət strukturu yaratdı. Azərbaycan-türk dili dövlət dili elan edildi, dövlət bayrağı təsdiq edildi və yeni yaradılan azərbaycan ordusuna çağırışın elan edilməsi haqqında qərar qəbul olundu.

18 noyabr 1918-ci ildə Azərbaycan Milli Şurası özünü Azərbaycan Xalq Cümhuriyyətinin parlamenti elan etdi. Ə.M.Topçubaşov Parlamentin sədri seçildi.

Cümhuriyyətin ərazisi müəyyən edilərkən qarşıya böyük çətinliklər çıxdı. Ən ağır ərazi problemi Azərbaycan Respublikası ilə Ermənistan Respublikası arasında sərhədlərin müəyyənləşdirilməsi idi. Azərbaycan torpaqları hesabına yaradılmış Ermənistan Respublikası Azərbaycanın Naxçıvan, Şərur - Dərələyəz qəzalarına və Dağlıq Qarabağa iddialar irəli sürdü. Eyni zamanda Azərbaycana məxsus olan Zəngəzur ərazisini də özünə birləşdirməyə çalışırdı. Gürcüstan Respublikası Zaqatala dairəsinə iddialar qaldırırdı. Azərbaycan hökuməti öz qanuni torpağı olan Borçalı qəzasının Gürcüstan Respublikasının tərkibinə daxil olmasını qəbul etməkdən imtina edirdi. Azərbaycan həmçinin Cənubi Dağıstan (Tabasaran) ərazisinə də haqlı iddia irəli sürürdü.

*Şərur-Dərələyəz qəzası (1918-1920-ci illər)*




*Naxçıvan 1918-1920-ci illər*




*Naxçıvan, Azərbaycana qarşı xairici hərbi müdaxilə dövründə, Azərbaycan SSR-in yaradılması (1918-1920)*




- 1918-1919 — Qırmızı ordunun hücumu
- 1918 — İngilis qoşunlarının hücumu
- 1918-1919 — Türk qoşunlarının xilaskarlıq yürüşü
- 1920 — Rusiyanın Volqa-Xezer donanması gemilerinin hereketi
- 1920 — XI Qızıl ordu hisselerinin hücumu (27-28 aprel )
- Türk qoşunları terefinden azad olunmuş şeherler
- 28.IV.1920 — Azerbaycan Sovet Sosialist Respublikasının yaradılması
- Sovet işğalına qarşı müqavimet herekatı
- Mübahiseli eraziler

Azerbaycan Xalq Cümhuriyyeti yarandığı günden rus,ingilis, ermeni-daşnak silahlı qüvvelerinin hücumuna meruz qaldı. Müdaxileçilerin her biri ayrı-ayrılıqda öz menafeyi uğrunda mübarize aparırdı.

Qızıl ordu ve S.Şaumyanın başçılığı altında olan qoşunlar Azerbaycanın Rusiyaya birleşdirilmesi planının yerine yetirilmesi meqsedile Genceye doğru hereket edirdiler. Gence bu zaman müsteqil Azerbaycan hökumetinin paytaxtı idi.

İngilis ordusu Azerbaycana keçmeye ve Bakını zebt etmeye cehd edirdi. Şeher evvelce türk ordusu terefinden azad olunmuş, sonra ingilisler terefinden işğal edilmişdir.

Neticede işğalçı rus ordusunun döyüş emeliyyatları ve tezyiqi neticesinde Azerbaycanın milli hökumeti istefa verdi.

28 aprel 1920-ci ilde Azerbaycanın şimalında sovet hakimiyyeti elan olundu. Xalqa divan tutuldu.

Azerbaycanda sovet hakimiyyeti 1991-ci iledek davam etdi. 18 oktyabr 1991-ci ilde Azerbaycanın müsteqilliyi yeniden berpa olundu.

**Naxçıvan MSSR, (1920-1922-ci illər)**




Ermənistan Respublikasına verilmiş Azərbaycan torpaqları



28 iyul 1920-ci ildə XI Qızıl ordu hissələri Naxçıvana daxil oldu. Naxçıvan Sovet Sosialist Respublikası elan edildi. Respublikanın ali orqanı —İnqilab Komitəsi yaradıldı. Naxçıvan SSR Şərur, Naxçıvan, Ordubad qəzalarını əhatə edirdi.

2 dekabr 1920-ci ildə RSFSR və Sovet Ermənistanı arasında imzalanan hərbi-siyasi sazişin III maddəsində Rusiya Sovet hökuməti qədim Azərbaycan torpağı olan Zəngəzuru Ermənistan SSR ərazisinin tərkibinə daxil olmasını mübahisəsiz tanıyır. Zəngəzur 1921-ci ilin iyununadək erməni-daşnak silahlı qüvvələrinin hakimiyyətində qalırdı. 1921-ci ilin iyununda Əlahiddə Qafqaz ordusu hissələrinin Zəngəzuru daşnak qüvvələrindən təmizləməsi ilə Zəngəzurun qərb və yuxarı hissələrinin Ermənistan SSR-ə birləşdirilməsi başa çatdırıldı. 20 iyun1921-ci ildə Ermənistan SSR XKS tərəfindən təsdiq olunmuş 8 qəzaya 9-cu Zəngəzur qəzası əlavə olundu.



**Naxçıvan MSSR , (1924-1929-cu illər)**




Ermənistan Respublikasına verilmiş Azərbaycan torpaqları

16 mart 1921-ci ildə Rusiya ilə Türkiyə arasında Moskva və 13 oktyabr 1921-ci ildə isə Rusiyanın iştirakı ilə Türkiyə, Azərbaycan, Gürcüstan və Ermənistan arasında Qars müqavilələri bağlanmışdır. Azərbaycan SSR MİK-nin 9 fevral 1924-cü il tarixli dekreti ilə Naxçıvan Muxtar Diyarı, Naxçıvan MSSR-ə çevrildi. 1924-cü ildə yaradılan 3 qəza (Şərur, Naxçıvan, Ordubad) 1925-ci ildə ləğv edildi. Əvvəllər yaradılmış 12 dairənin sayı 8-ə endirildi.

18 fevral 1929-cu ildə Moskva və Qars müqavilələrinin şərtləri kobud şəkildə pozularaq Zaqafqaziya MİK-nin qərarı ilə Naxçıvan MSSR-in 9 kəndindən ibarət 657 kv. km ərazisi (Şərur qəzasının Qurdqulaq, Xaçik, Horadiz, Naxçıvan qəzası Şahbuz nahiyəsinin Oğbin, Ağxaç, Almalı, Sultanbəy, İtqıran kəndləri, Ordubad qəzasının Karçevan kəndi, Kilit kənd torpaqlarının bir hissəsi) Ermənistan SSR-ə verildi.

Zeviyyə—Mədrəsə binası










YAŞAYIŞ MƏNTƏQƏLƏRİ
- Şəhərlər
- Qəsəbələr
- Kəndlər

NAXÇIVAN — Muxtar Respublika paytaxtı
CULFA — Rayon mərkəzləri
Cəhri — İnzibati- ərazi dairələrinin mərkəzləri
Nürgüt — Digər yaşayış məntəqələri
70,4 — Əhalinin sayı (min nəfərlə)
Qarğalıq — Dəmiryol stansiyaları

YOL ŞƏBƏKƏSİ
- Dəmir yolları və stansiyalar
- Körpü
- Təkmilləşdirilmiş şose yolları
- Şose yolları
- Sair yollar
- 40 Kilometr işarələri və onlar arasındakı məsafələr

HİDROQRAFİYA
- Çayların, göllərin və su anbarlarının sahil xətləri
- Dəyişən sahil xətti
- Çaylar
- Quruyan çaylar
- Kanallar
- Çayların axın istiqaməti

RELYEF
- •1677 Yüksəklik göstəriciləri
- Aşırımlar
- Qumluqlar

SƏRHƏDLƏR
- dövlətlərin
- rayonların
- qoruqların və milli parkların




## NAXÇIVAN MUXTAR RESPUBLİKASI (2009-cu il)
Siyasi-inzibati xəritə










1921-ci ilin sonunda Naxçıvan respublikasında sovetlərə seçkilər keçirildi. 1922-ci il yanvarın 25-də Naxçıvan SSR-in Birinci Sovetlər qurultayı oldu. Qurultay diyarda sovet və təsərrüfat quruculuğuna dair mühüm qərarlar qəbul etdi. Naxçıvan İnqilab Komitəsi ləğv olundu, Naxçıvan İcraiyyə Komitəsi və Naxçıvan SSR Xalq Komissarları Soveti yaradıldı.

1922-ci il mayın 22-də AK(b)P MK Rəyasət Heyəti Naxçıvan diyarı haqqında Əsasnamənin və Naxçıvan SSR Konstitusiyasının layihələrinə baxdı. Əsasnamədə deyilirdi: "Naxçıvan diyarı AS-SR-in qəyyumluğu altında muxtar respublika elan edilərək, Naxçıvan Sovet Sosialist Respublikası adlandırılsın".

1922-ci ilin noyabrında V.İ.Leninin sədrliyi ilə RK(b)P MK Siyasi Bürosu Naxçıvan Muxtar Respublikası yaradılmasının zəruriliyi haqqında qərar qəbul etdi.

***Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının yaranması, 1923-cü il***



ВЫПИСКА

из журнала постановлений президиума Азерб.Центрального Исполнительного комитета от 31/XII 1923г.

| Слушали: | Постановили: |
| --- | --- |
| 5. О преобразовании ахкрая в Нахичеванскую еспублику | 5. Нахичеванский край преобразовать в Автономную Нахичеванскую Республику, входящую в состав АССР. Просить ЗакЦИК санкционировать /Оглашению не подлежит/ |

Секретарь Аз.ЦИКа – подпись



1923-cü il yanvarın 21-də AK(b)P Mərkəzi Komitəsi RK(b)P Zaqafqaziya Ölkə Komitəsi Rəyasət Heyətinin 18 yanvar 1923-cü il tarixli qərarına əsasən Naxçıvan MİK və XKS-ni ləğv etdi, Naxçıvan Diyar İcraiyyə Komitəsini yaratdı və təşkilat AK(b)P Naxçıvan Diyar Komitəsi adlandırıldı.

1923-cü il fevralın 27-də Naxçıvan diyar Sovetlər qurultayında Naxçıvan SSR-in Naxçıvan ölkəsinə çevrilməsi qərara alındı.

1923-cü il dekabrın 31-də Azərbaycan SSR MİK Naxçıvan diyarının Azərbaycan SSR tərkibində Naxçıvan MSSR-ə çevrilməsi haqqında qərar qəbul etdi.

***Naxçıvan Diyarı Komsomol Komitəsi 1 may nümayişi, 1923-cü il***



*1 may nümayişi, 1921-ci il*



*Torpaq aktı, 1934-cü il*






*Naxçıvan şəhər klubunda özfəaliyyət dərnəyi, 1931-ci il*



*Naxçıvan Müəllimlər Evinin ansamblı, 1936*



Naxçıvan Muxtar Respublikasının 55 illiyi, Heydər Əliyev və İlham Əliyev, 1979-cü il



Naxçıvan Muxtar Respublikasının 55 illiyi, 1979-cü il



Naxçıvan Muxtar Respublikasının Ermənistan təcavüzündən mətanətlə müdafiə edilməsində, son dərəcə çətin vəziyyətdə idarə olunmasında ulu öndər Heydər Əliyevin Naxçıvan dövrü fəaliyyəti, onun bütün Azərbaycanın gələcəyi üçün müstəsna əhəmiyyət kəsb edən bir sıra təşəbbüslər irəli sürərək qərarlar qəbul etməsi Azərbaycan tarixinin ən parlaq səhifələrindəndir. O zaman muxtar respublika rəhbərliyinin milli istiqlaliyyət yollarında atdığı cəsarətli addımlar bütün Azərbaycan xalqı tərəfindən böyük rəğbətlə qarşılanaraq dəstəkləndi və respublikada gedən siyasi proseslərə öz müsbət təsirini göstərdi. 1990-cı ilin noyabr ayının 17-də keçirilmiş Naxçıvan MSSR Ali Sovetinin 1-ci sessiyasının qərarı ilə “Sovet”, “Sosialist” sözləri muxtar respublikanın adından çıxarıldı, Ali Sovetin adının dəyişdirilib, Ali Məclis adlandırılması qərara alındı, Azərbaycan Xalq Cümhuriyyətinin 1918-ci ildə qəbul edilmiş üçrəngli bayrağı Naxçıvan Muxtar Respublikasının da bayrağı kimi qəbul olundu. Ali Məclis eyni addımın Azərbaycan Respublikasında da atılması barədə qanunvericilik təşəbbüsü ilə çıxış etdi.

***17 noyabr tarixi ölkəmizdə Milli Dirçəliş Günü kimi qeyd olunur.***

*17 noyabr 1990*





**Нахчыван Мухтар Республикасы Али Мәчлисинин**

**ГӘРАРЫ**

**ПОСТАНОВЛЕНИЕ**

**Верховного Меджлиса Нахичеванской Автономной Республики**

Нахчыван Мухтар Республикасы Али дөвләт hакимиjjәти органы hаггында

Нахчыван Мухтар Республикасынын Али Мәчлиси г ә р а р а алыр:

1) Нахчыван Мухтар Республикасы Али дөвләт hакимиjjәти органынын ады дәjишдирилсин.

2) Нахчыван Мухтар Республикасынын Али Совети бундан сонра Нахчыван Мухтар Республикасынын Али Мәчлиси адландырылсын.

Нахчыван Мухтар Республикасы Али
Мәчлиси биринчи сессиjасынын
С ә д р и : h.Әлиjев

Нахчыван шәhәри, 17 ноjабр 1990-чы ил.
№ 8 - XII

Нахчыван Мухтар Республикасы Али Мәчлисинин

**Г Ә Р А Р Ы**

**ПОСТАНОВЛЕНИЕ**

**Верховного Меджлиса Нахичеванской Автономной Республики**

Нахчыван Мухтар Республикасынын дөвлөт рөмзлөри һаггында

Нахчыван Мухтар Республикасынын Али Мәчлиси г ө р а р а алыр:

1) Илк Азәрбајчан Демократик Республикасынын үчрәнкли дөвләт бајрағы Нахчыван Мухтар Республикасынын дөвләт бајрағы кими тә"сис едилсин.

2) Нахчыван Мухтар Республикасынын дикәр дөвләт рәмзи-дөвләт кербы һаггында мәсәлә өјрәнилиб Нахчыван Мухтар Республикасы Али Мәчлисинин мүзакирәсинә верилсин.

3) Азәрбајчан Демократик Республикасынын үчрәнкли дөвләт бајрағынын бүтөвлүкдә Азәрбајчан ССР-нин дөвләт рәмзи кими тә"сис едилмәси мәсәләси ганунверичилик тәшәббүсү гајдасында Азәрбајчан ССР Али Советиндән хаһиш едилсин.

Нахчыван Мухтар Республикасы Али Мәчлиси биринчи сессијасынын
С ә д р и : h.Әлијев

Нахчыван шәһәри, 17 нојабр 1990-чы ил

№ 9-XII



Нахчыван Мухтар Республикасы Али Мәчлисинин

**Г Ә Р А Р Ы**

**ПОСТАНОВЛЕНИЕ**

**Верховного Меджлиса Нахичеванской Автономной Республики**

Нахчыван Мухтар Совет Сосиалист Республикасынын адынын дәјишдирилмәси һаггында

Нахчыван Мухтар Республикасынын Али Мәчлиси г ә р а р а алыр:

1) Нахчыван Мухтар Совет Сосиалист Республикасынын ады дәјишдирилсин.

2) Нахчыван Мухтар Совет Сосиалист Республикасы бу күндән Нахчыван Мухтар Республикасы адландырылсын.

Нахчыван Мухтар Республикасы Али Мәчлиси биринчи сессијасынын
С ә д р и : h.Әлијев

Нахчыван шәһәри, 17 нојабр 1990-чы ил

№ 7-XII

Heydər Əliyev, Naxçıvan 1990-cı illər



Heydər Əliyev, Naxçıvan 1990-cı illər




Heydər Əliyev, Naxçıvan 1990-cı illər



Heydər Əliyev, Naxçıvan 1990-cı illər



Heydər Əliyev, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri vəzifəsində işlədiyi illər



Heydər Əliyev, Naxçıvan səfəri, 1996-cı il



Ordu hər bir dövlətin özünütəsdiq imkanıdır. Azərbaycan ordusunun inkişafı yolunda ilk addımlar ötən əsrin 70-ci illərində ümummilli lider Heydər Əliyev tərəfindən atılmışdır. Ulu öndərimiz sovet hakimiyyətinin mövcud olduğu bir dövrdə Azərbaycanın gələcək dövlət müstəqilliyi barədə düşünərək Cəmşid Naxçıvanski adına Hərbi Məktəbi yaratmış, ölkəmizdən kənarda hərbi kadrların yetişməsinə, həmçinin Azərbaycanda fəaliyyət göstərən ali hərbi məktəblərdə azərbaycanlıların sayının artırılmasına nail olmuşdur.

*Naxçıvan, Hərbi Lisey, 1996-cı il*





Ulu öndərin rəhbərliyi ilə Azərbaycanın milli dövlətçiliyinin bərpası Naxçıvandan başlandığı kimi, milli ordu quruculuğu da ötən əsrin 90-cı illərində Naxçıvandan başlanmışdır. Xalqımızın böyük oğlu Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri seçiləndən 4 gün sonra - 1991-ci il sentyabrın 7-də muxtar respublikanın müdafiəsinin təşkili ilə bağlı mühüm qərarlar qəbul etmiş, mövcud hərbi dəstə və hissələrə vahid rəhbərliyi həyata keçirən müvafiq dövlət qurumu yaratmışdır. 1992-ci il sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk əlahiddə gücləndirilmiş motoatıcı briqada təşkil edilmiş, bununla da Azərbaycanın nizami ordusunun yaradılmasına başlanmışdır.

Hazırda Azərbaycanın nizami ordusu Ali Baş Komandan İlham Əliyevin uğurlu rəhbərliyi altında yüksək inkişaf dövrünü yaşayır.

*Naxçıvan, Hərbi Lisey, 1996-cı il*



Ulu öndər Heydər Əliyev görkəmli mütəfəkkir, şair-dramaturq Hüseyn Cavidin şəxsiyyətini və ədəbi irsini yüksək qiymətləndirmiş, sevgi ilə yanaşmışdır. Ümummilli liderin təşəbbüsü və səyləri ilə böyük şairin 100 illik yubileyi ərəfəsində cənazəsi Rusiya Federasiyasının İrkutsk vilayətindən Naxçıvana gətirilib, buradakı ev-muzeyinin yaxınlığında dəfn edilmişdir. Prezident Heydər Əliyevin iştirakı ilə 29 oktyabr 1996-cı il tarixdə şairin məzarı üzərində ucaldılmış möhtəşəm məqbərənin açılışı olmuşdur.

***Hüseyn Cavid məqbərəsinin açılışı, 29 oktyabr 1996-cı il***




***Hüseyn Cavid məqbərəsinin açılışı, 29 oktyabr 1996-cı il***





Cəlil Məmmədquluzadənin ev-muzeyi, 1996-cı il




Heydər Əliyev, Naxçıvan 1996-cı il



Heydər Əliyev, Naxçıvan 1996-cı il



Heydər Əliyev, Naxçıvan, 1996-cı il




Naxçıvan Olimpiya İdman Kompleksinin açılışı, 2002-ci il 15 iyun



Naxçıvan Olimpiya İdman Kompleksinin açılışı, 2002-ci il 15 iyun



Heydər Əliyev adına orta məktəbin açılışı, 2004-cü il



Nuh peyğəmbərin məzarüstü türbəsi, Naxçıvan, avqust 2009-cu il



Ordubadda Biləv Su Elektrik Stansiyasının açılışı, 2010-cu il



Naxçıvan şəhərində, Gəmiqaya Daş Məhsulları Kompleksinin açılışı, 2010-cu il



Sədərək rayon Mərkəzi xəstəxanasının açılışı, 2010-cu il



Naxçıvan Regional İnformasiya Mərkəzinin açılışı, 2010-cu il



*İlham Əliyevin Naxçıvana səfəri, 2014-cü il*




*İlham Əliyevin Naxçıvana səfəri, 2014-cü il*





Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev aprelin 7-də Naxçıvan Muxtar Respublikasına səfər etmişdir. Dövlət başçısı Naxçıvan Beynəlxalq Hava Limanının yeni inzibati binasının, Gənclər Mərkəzinin, bir sıra infrastruktur obyektlərinin açılışında iştirak etmişdir.

*İlham Əliyevin Naxçıvana səfəri, 2014-cü il*



Prezident İlham Əliyev yeni yaradılan "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi ilə tanış olmuşdur.

Naxçıvan Muxtar Respublikasının ərazisində zəngin mədəniyyət və memarlıq nümunələri var. XVII əsrin ortalarınadək müdafiə istehkamı kimi mövcud olmuş Naxçıvanqala müharibələr nəticəsində dağılaraq əvvəlki möhtəşəmliyini itirmişdi. 2010-cu ildə Naxçıvanqalanın bərpasına başlanılmış, tarixi ərazidə yenidənqurma işləri aparılmış, burada "Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi yaradılmışdır.

***"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi***



***"Naxçıvanqala" Tarix-Memarlıq Muzey Kompleksi***



Muzey kompleksi ilə tanış olan dövlətimizin başçısına məlumat verilmişdir ki, burada nümayiş olunan ən qədim nümunələr eramızdan əvvəl V-III minilliyə aiddir. Məişət əşyaları, keramika məmulatları, mis alətlər, qəbirüstü abidələr, silahlar, zirehli geyim hissələri muzeyin qiymətli eksponatlarındandır. Muzey kompleksinin yaradılması bəşər sivilizasiyasının ilk beşiklərindən olan Naxçıvan diyarının əsrlər boyu Şərqin ticarət, sənətkarlıq, elm və mədəniyyət mərkəzi olduğunu və tarixi abidələrlə zənginliyini sübut edir. Tarixi araşdırmalar göstərir ki, bu memarlıq abidələri arasında özünəməxsus yeri olan Naxçıvanqala yalnız müdafiə məqsədi daşımamışdır. Bu qala, eyni zamanda, burada formalaşmış ilkin şəhər mədəniyyətinin ayrılmaz elementinə çevrilmidir. Naxçıvan şəhərinin 1827-ci ilə aid planında Naxçıvanqalanın sxematik təsviri də verilmişdir. Plana əsasən, qala iki hissədən - kiçik qala, yəni Narınqala və Böyük qaladan ibarət olmuşdur.

Qalanın xüsusiyyətlərindən biri də onun altından kəhrizlərin keçməsidir. Bu fakt həm dinc, həm də mühasirə və müharibə dövrlərində qala sakinlərinin su ilə təminatına və ərzaq məhsullarının saxlanmasına şərait yaratmışdır.

*Naxçıvan Avtomobil Zavodu, 8 aprel 2014-cü il*



*"Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının işə salınması mərasimi, 8 aprel 2014-cü il*



*"Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının işə salınması mərasimi, 8 aprel 2014-cü il*



*"Arpaçay-1" və "Arpaçay-2" Su Elektrik stansiyalarının işə salınması mərasimi, 8 aprel 2014-cü il*



Prezident İlham Əliyev aprelin 8-də Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə iştirak etmişdir. Naxçıvan şəhərindəki Heydər Əliyev Sarayında keçirilən mərasimdə dövlət başçısı nitq söyləmiş, muxtar respublikanın 90 illik yubileyi münasibətilə təbriklərini çatdırmışdır.

Prezident İlham Əliyevin 5 aprel 2014-cü il tarixli sərəncamı ilə Naxçıvan Muxtar Respublikasının sosial-iqtisadi inkişafında xidmətlərinə görə muxtar respublikanın bir qrup ziyalısı "Tərəqqi" medalına və fəxri adlara layiq görülmüşdür. Dövlət başçısı həmin mükafatları sahiblərinə təqdim etmişdir.

Yubiley mərasiminin rəsmi hissəsindən sonra Naxçıvan Muxtar Respublikasının incəsənət ustalarının ifasında konsert proqramı nümayiş olunmuşdur.

*İlham Əliyev Naxçıvan MR-in 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə, 2014-cü il*





*İlham Əliyev Naxçıvan MR-in 90 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə, 2014-cü il*





*NDU-nun beynəlxalq münasibətlər və xarici dillər fakültəsi*



*"Duzdağ" hotel*




*Heydər Əliyev Sarayı*




*"Duzdağ" Fizioterapiya Mərkəzi*



"Təbriz" mehmanxanası




Naxçıvan şəhəri, Doğum Mərkəzi




C.Məmmədquluzadə adına Naxçıvan Dövlət Musiqili Dram Teatrı




Diaqnostika-Müalicə Mərkəzi



Naxçıvan şəhəri, Saat Qülləsi



Naxçıvan şəhəri, Turizm İnformasiya Mərkəzi



Şahbuz rayonu, Ağbulaq İstirahət Mərkəzi



Şahbuz şəhərindən 20 kilometr məsafədə, dəniz səviyyəsindən 2000 metr yüksəklikdə istifadəyə verilən Ağbulaq İstirahət Mərkəzində turistlərin rahatlığı üçün hər cür şərait yaradılıb. Aparılan məqsədyönlü işlərin nəticəsidir ki, 2013-cü ildə muxtar respublikaya ölkəmizin bölgələrindən və xaricdən, ümumilikdə, 370 mindən çox turist səfər etmişdir.

## Naxçıvan Muxtar Respublikasının 90 illiyinə həsr olunmuş sərgi keçirilib

Mayın 12-də Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə Bakı Biznes Mərkəzində Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyinə həsr edilmiş sərginin açılışı keçirilib. Açılış mərasimində dövlət və hökumət rəsmiləri, millət vəkilləri, ictimaiyyət nümayəndələri iştirak ediblər.

*Səriginin açılışı, 12 may 2014, Bakı Biznes Mərkəzi*









Tədbiri mədəniyyət və turizm nazirinin birinci müavini Vaqif Əliyev açaraq Naxçıvan Muxtar Respublikasının keçdiyi çətin və şərəfli tarixi inkişaf yolu haqqında geniş məlumat verib. Qeyd olunub ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 14 yanvar 2014-cü il tarixli sərəncamına əsasən Naxçıvan Muxtar Respublikasının 90 illik yubileyi ölkəmizdə geniş şəkildə qeyd edilir. Sərəncama əsasən, Mədəniyyət və Turizm Nazirliyi Xarici İşlər və Təhsil nazirlikləri, Diasporla İş üzrə Dövlət Komitəsi və Azərbaycan Milli Elmlər Akademiyası ilə birlikdə yubileyə həsr olunmuş tədbirlər planı hazırlayıb. Təşkil olunan sərgi də bu tədbirlərdən biridir.



Naxçıvanın Azərbaycanın ayrılmaz hissəsi olduğunu deyən Vaqif Əliyev muxtar respublikanın yaradılmasının tarixi zərurətdən irəli gəldiyini diqqətə çatdırıb. Vurğulayıb ki, Naxçıvanın hərtərəfli inkişafına, o cümlədən muxtar respublika ərazisindəki mədəniyyət obyektlərinə dövlət tərəfindən daim diqqət göstərilir. Muxtar respublikada əhalinin yaşayış səviyyəsinin yüksəldilməsi, mədəni istirahəti üçün hər cür şərait yaradılıb: "Naxçıvan ildən-ilə inkişaf edir, dəyişir. Ölkəmizin dinamik inkişafı imkan yaradır ki, Azərbaycanın bu qədim mədəniyyət mərkəzində sosial infrastruktur layihələri də yüksək səviyyədə həyata keçirilsin. Bugünkü sərgi Naxçıvanın uğurlarını əks etdirmək baxımından əhəmiyyətlidir. Sərgidə elə tarixi sənədlər var ki, ilk dəfə nümayiş olunur".

Ümummilli lider Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra Azərbaycanda, eləcə də Naxçıvanda həyata keçirilən mühüm layihələrdən söz açan Vaqif Əliyev bildirib ki, ulu öndər tərəfindən təməli qoyulan bu işlər Prezident İlham Əliyevin rəhbərliyi ilə uğurla davam etdirilir. Qədim Naxçıvan şəhəri 2018-ci ildə "İslam Mədəniyyətinin Paytaxtı" kimi böyük bir missiyanı yerinə yetirəcək.








Naxçıvan Muxtar Respublikasının Bakıdakı daimi nümayəndəsi Bəxtiyar Əsgərov çıxış edərək bu cür tədbirlərin əhəmiyyətindən danışıb. O, muxtar respublikada son illərdə həyata keçirilmiş tikinti-quruculuq işlərindən, qazanılmış nailiyyətlərdən, elmi-mədəni, sosial-iqtisadi inkişafdan, Naxçıvanın müdafiə qüdrətindən bəhs edib. Bəxtiyar Əsgərov tədbirin yüksək səviyyədə təşkilinə görə Mədəniyyət və Turizm Nazirliyinə təşəkkürünü bildirib.

Sonra sərgiyə baxış keçirilib. Ekspozisiyada Naxçıvan Muxtar Respublikasının tarixindən, görkəmli şəxsiyyətlərindən bəhs edən, rəsmi dövlət tədbirlərini, maddi-mədəniyyət abidələrini, ədəbi mühitini, sosial-iqtisadi inkişafını əks etdirən sənədlər, fotoşəkillər, videoçarxlar nümayiş olunub.

***Cam***



***Hamam sandığı***



Orta əsrlərin ərəb müəllifləri Naxçıvanda xalçaçılığın geniş vüsət alması və bu ərazidə toxunan xalçaların şöhrət qazanması barədə öz əlyazmalarında dəyərli məlumat vermişlər. Xalça sənətinin Naxçıvanda geniş yayılmasına və tərəqqisinə səbəb xalqın məişət və estetik tələbatı olmuşdur. Adətən bu ərazidə istehsal edilən 20-30 kv-metrədək iri ölçülü, qalın toxunuşa malik xovlu xalça və keçə, palaz, cecim, kilim, şəddə, zili kimi xovsuz xalçalardan evlərdə döşəmələrin örtülməsində, otaqların isidilməsində və bəzədilməsində istifadə edilmişdir. Xalça sənəti Naxçıvanın Şərur, Şahbuz, Ordubad və Culfa bölgələrində daha geniş yayılmışdır. Bu ərazidə xalça sənətinin inkişafına qonşu ölkələrdə olan ticarət əlaqələrinin də təsiri olmuşdur.

Xalçaların sıxlığı 35 x 35-dən 40 x 45-dək ərişli arğacı və üz ipi olmuşdur. Naxçıvanda toxunan xalçalar bədii və texnoloji xüsusiyyətlərinə görə Qarabağ xalça məktəbi ənənələrinə yaxındır.

Son illərdə muxtar respublikada xalçaçılığın inkişafına diqqət və qayğı daha da gücləndirilib. Fərəhləndirici haldır ki, Prezident İlham Əliyevin "Azərbaycanda muzey işinin yaxşılaşdırılması haqqında" 2007-ci il 6 mart tarixli sərəncamı ölkəmizdə, eləcə də Naxçıvan Muxtar Respublikasında müxtəlif profilli muzeylərin yaradılmasında, onların maddi-texniki bazasının möhkəmləndirilməsində mühüm rol oynamışdır. Naxçıvan Dövlət Xalça Muzeyinin yeni binasının istifadəyə verilməsi də maddi-mənəvi irsin qorunub saxlanılması istiqamətində dövlət qayğısının parlaq təzahürüdür.







Xalq və millətlər kimi, onların mənsub olduğu minillik dəyərlərin, etnik-mədəni irsin də müstəqilliyin, azadlığın yaratdığı münbit zəminə ehtiyacı var. Azərbaycan milli musiqisi də dünya miqyasında artan mədəni şöhrətimizin təsdiqində böyük pay sahibidir.

Mədəni irsimizin təbliği sahəsində dövlətimizin apardığı məqsədyönlü işlər nəticəsində 2003-cü ildə muğam, 2009-cu ildə aşıq sənəti, 2012-ci ildə isə Azərbaycan tar ifaçılıq sənəti UNESCO-nun qeyri-maddi mədəni irs siyahısına daxil edildi. Dünya ictimaiyyəti Dədə Ələsgər sazının açdığı həqiqi sənət yolu ilə Sadıqcanın bağrına basaraq gələcək nəsillərə əmanət etdiyi tar ifaçılıq sənətinin zirvəyə necə çatdığının bir daha şahidi oldu...

Naxçıvan Muxtar Respublikası da bu qədim və zəngin musiqi irsinin yaradılması və inkişaf etdirilməsinə öz qiymətli töhfələrini vermiş və bu gün də verməkdədir.







KAMANÇA





